**Nuranə Nur “Yoxluğuna və sağlığına”**

Iztirabın işiği, yaxud həyata çağırış səsi

Hörmətli Nuranə xanım, sizin şeirləri “Azərbaycan”, “Ulduz”, “Literaturnıy Azerbaydjan” Türkiyədə çap olunan “Kardeş kalemler” jurnallarında, “Ədəbiyyat qəzeti”ndə oxumuşam. Və bu yaxınlarda yeni şeirlərinizi də oxuyandan sonra aldiğım zövqü o biri şeirlərin üstünə gəlsəm təsəvvürüm daha da genişləndi və sizin şair səciyyəniz ədəbi prosesdə özünüzə məxsus olan yeri mənə dəqiq göstərdi. Öyrəndim ki, 2010-cu ildə “Yazıçı” nəşriyatında “Yanaqda yağış yeri” adlı şeirlər kitabınız işıq üzü görüb, həmçinin Türkiyədə, İranda, bir sıra xarici ölkələrdə ingilis dilində şeirləriniz çap olunub. Gənc olsanız da, artıq yetkin bir şair kimi tanınırsınız. Şeirin daş-kəsəkli yollarında yalnız qəlbinizdəki sözə sığınmısınız. Əlbəttə, azərbaycanlı gəncin belə ədəbi uğurları məni çox sevindirir.

Yeni yazılarınızla tanışlıq zamanı gördüm ki, şeir diliniz özünəməxsus olmaqla tutumludur. Deməyə sözünüz var. Bəzən qafiyəli, qafiyəsiz, bəzən hecada, əsasən sərbəst yazılmış bu şeirlər epistolyar janrda qələmə alınmış bir kitab məktub təsiri bağışladı. Demək olar ki, bir-bir məktubların hamısını oxudum. Hisslər və mühakimələr toplusunda sevgi sarsıntıları keçirmiş qadın ürəyindən qopan nidalardı. Nə yaxşı ki, nida işarələri, pafoslu qışqırıqlar yoxdu.

Hıçqırıqlıdı. Bu hıçqırıqlar bəlkə gözlə görünməyən göz yaşıdı. Bax, şeir də budur, ədəbiyyat da. Bu iztirab bədbəxtlikdən uzaqdı. O həssas insanı müdrikləşdirə bilər.

Ləyaqət sahibinin ruhi sıxıntılarlı da ləyaqətli olmalıdır. Bu insani keyfiyyyətdi. Təbiidir ki, iztirabın özünə də layiq olmaq lazımdı. İztirablar bəlkə də həssas qadın ürəyi çəkdiyi üçün əvəzsiz, pak və bir az da dərkedilməzdi. Müqəddəs hissləri, duyğuları açmaq, xırdalamaq, izahına çalışmaq məlumdur ki, poetik düşüncəyə yaddır. Deməli, iztirab da müqəddəsləşə bilər və olur da. Bəzən bir “ah” , “uf” kimi qəfil hıçqırıqların özü də uzun müddət yadda qalır, insanı düşündürür.

Ayrılıq olan yerdə “...aramızda bir könül məsafə var”,-deyirsiniz. Gözəl təşbehdi. Həm uzaq, həm yaxın. Həm əbədi ola bilər, həm müvəqqəti. Onun yoluna - gedərkən arxasınca “ yaz yağışlarından topladığım göz yaşları”nı atmışam , - yazırsınız. Yaz yağışları şəffafdı, safdı, təmizdi. İztirabın işiğını, nurunu görmək və göstərmək istəyirsiniz. Tapdığınız bu gözəl poetik epitetlərə səadətə inam hisslərini həssaslıqla ifadə edirsiniz. Bütün hekayət bəlkə də müəllifin yaşadığı əks-sədadır. Özünüz gəncsiniz. Qələminiz isə artıq püxtələşib. Bir qadın ürəyindən şüalanan iztirablar işıq, nur kimi oxucu ürəyini də qızdırır. Hənirtisi soyumur. O üzə çıxmalıdır. Bəlkə buna görə də “ şeir üzlüm” deyə müraciət etdiyiniz o məhkum varlıq belə

təmizliyin timsalında təqdim olunur.
Siz iztirablarda paklığı, işığı və nuru axtarırsınız. Hər halda çox maraqlı və orijinal axtarışlardı. Əslində özünüzü axtarırsınız demək istəyirəm.
Şeirlərdəki "Mən" də axtarışıdır. Təbiidir ki, ömür boyu yox.
Bəzən yazırlar ki, yaradıcılıq ömür boyu axtarışdı. Mən bu fikrin əleyhinə deyiləm. Axtara-axtara qalmaq və bunula fəxr etmək də mənasızdı. Sanki bir arxdolu su münbit torpağa yox, qumsallığa axır.
Platon deyir ki, Homer hər şeyi deyib. Nə yeni söz qoyub qalsın, nə yeni fikir. Ümumiyyətlə, böyük sənətkarlar haqqında həmişə belə deyirlər. Amma axtarıb tapanda dünyaya Nizami gəlir, Füzuli gəlir, Nəsimi gəlir.
Mən bu mülahizələri yeri gəlmişkən söylədim.
Kitabdakı şeirləri, məktubları vərəqlədikcə yadıma qədim dövr filosofunun, din xadiminin məşhur bir sözü düşür.
O deyir ki, həyat-iztirabıdı. İnsanların sonsuz istəklərə, zövqə, əyləncəyə göstərdiyi ehtiraslı meyl iztirabın mənbəyidir,- yazırdı.
Təbii qanunauyğunluqları inkar edən bu fikir sonrakı dövrlərdə "səadətdən könüllü surətdə imtina etmək" kimi mənfi qarşılanmış, hətta göründüyü kimi, iztirab başqa bir mənada insan səadətinə bərabər tutulmuşdu.
Lev Tolstoy da insanın göz yaşını incəsənətin yüksək növü kimi mənalandırırdı.
İztirab üzüntülü olmayanda, ləyaqət qədər ülvi təsir bağışlayır, yəni heyrət doğurur və bəlkə də insan özünə daha çox bənzəyir.
Görün böyük şair nə deyir:
" Var bir dərdim ki, çox dərmandan artıqdır mənə,
Qoy məni dərdimlə, dərman eyləmə, var, ey, həkim".
"Füzuli dərdi" yüz illərdi beləcə yaşayır və yaşadır. İnsanı kamilləşdirir.
Ustadın "məşhur Ey həkim" qəzəlinə nəzirə yazmaq fikrində olmamısınız?
İnsanın üzüntülü iztirablara tabe olmaması isə ondakı ali hisslərin, duyğuların üzə çıxmasına səbəb olur ki, bunu xoşbəxtliyin başqa bir rəngdə görünüşü kimi hallandıranda, siz haqlısınız.
Yəqin insana həyatının dolaşıq qanunauyğunluqları dünyanın tarazlığı deməkdir.
Həssaslıqla yazırsınız:
"Qürurunun kölgəsində daldalanan
Xoşbəxtliyi yalnız duyub
Yaşaya bilməyənlər
Susurlarsa,
Bu, fırtınaya işarədir.
Məni anlasa yalnız
Bir şair anlaya bilər".
Kimdir "bir şair?"
Konkret mənada deyə bilmərəm.
Abstrakt mənada bəlkə Vaxt? Bəlkə Zaman?

Bəlkə o da üzünü müasirlərinə tutub Vertenin (V, Höte) demək istədiyi "Məni duyun, eşidin…" sözlərini demək istəyir?
Bəlkə bu sözlər hər əsrdə yenidən deyilməlidir?

Hörmətlə,
Nəriman Həsənzadə Bakı,
Xalq şairi 15 oktyabr 2012

**Şeir üzlüm**

Gedərkən arxanca atdım,

yaz yağıslarından topladığım göz yaşlarımı.

Düsünmək - unutmaq cəhdimdi,

qüsurlarını xatırlamaq da sənə toxunmaqdı.

Şeir üzlüm,

Şairlər qısqanar bu adı sənə.

Yağışlar bulutlara qayıdanda gəlimmi?

Bəlkə də söz verdim,gələ bilmədim

Təkcə sevmək azdı günahımdan keç

Gəlib pəncərənə yağa bilmədim

Sizin qapınızı tanımadım heç…

**Gəlirəm**

Baxa bilmirəm,

Hisslərinin arxasından baxan gözlərinə

Görə bilmirəm ,

Çox görmək istədiyim üçün olanları

Tapa bilmirəm gizlətdiyin keçmişini.

Sevgin bu qədər böyük ikən,

Nədən şübhələrlə dolusan?

Ömrün çıxmaqdan qorxduğu

ən dik, yoxuşlu yolusan.

Çəkirsən özünə tutub hissimin

ən zərif telindən sığallayaraq,

elə aparırsan düşünmək olmur

bu yolu gedərək,

addımlayaraq.

Bir yol nişanı axtarıram

dayanmaq,

geri dönmək üçün.

Bütün nişanları dəyişmisən

bu sevginin yollarında,

bilirəm...

Indi ki,belədir,

Belə istədin,

Hazırlaş yola çıx,

Mən də gəlirəm.

**Yadındadı?**

Yadındadı?

payız idi…

Yadındadi?

o ilk baxış?

Baxışından elə çaşdım,

sənə qaçdım…

Azca ayağım büdrədi,mənə güldün…

o payız mən gülüşünlə

çiçək açdım…

O payız dünya gözümdə

qızlıq, qadınlıq taxtıydı,

Sənə necə inanmışdım,

Mənə “gülüm” deyəndə sən

Güllərin solan vaxtıydı…

Yadındadı?

Uzağa baxıram deyərdin mənə

Uzaqgörən deyiləmmiş…

Heç gözləmədiyim tərəfdən

gəldin, amma

Gözlədiyim tərəfdə də yoxsan indi…

O istəyin,o həvəsin

bu payızdan o payıza

Qayıdarmı bir də geri?

Özün doldura bilmirsən

Xəyalın dolduran yeri.

## Bilmədin

Yenə sənsizlik,

Yenə sənsiz,

Yenə sən.

Bilmədin necə sevilirsən.

Iki nəfərlik oyunu,

nə qədər təkbaşına oynamaq olar?

Nə udan var,nə uduzan.

Nə vaxta qədər

Sənli xatirələr olacaq, yuxularımı yozan?

Göz yaşlarım idi, günahlarını yuyan,

Zülmət gecələrdə etdiyim dualar idi,

gününü işıqlandıran

Bilmədin.

Həmişə sənin yerində olmaq istəmişəm,

indi istəmirəm.

Indi sənsizliyi səndən çox sevirəm.

Varlıgın nə vermişdi ki,

Yoxluğun nə alsın?

Ayrılıqdan soruşduqlarımı

Həsrətə danışdım varaq-varaq.

Razılaşdıq birtəhər,

Məndən aldıqlarını geri ver,

Ayrılaq!

**Yetməyəcək.**

Heç vaxt ,heç nə yetməyəcək
bu sevgiyə
heç vaxt,heç nə.
Nə sənin gözlərimə baxıb köks ötürməyin,
Nə mənim ürəkdə sevinməyim
Yetməyəcək,
min dəfə" sevirəm" deməyin,
Hər görüşdə bir az daha böyüməyin.
Yetməyəcək gecikdiyin üçün dizlərinə döyməyin
Nə qurban versək də,
Nə istədiyini heç vaxt bilməyəcəyik bu eşqin.
Azad sevgi arzulayan
Yasaq eşq həsrətliləri,
Azadlıq bir qadinin evi qədər
Bir kişinin cibi qədər olur.
Yetməyəcək böyük sevgiyə bu qədəri.
Ala bilsən
Gəl, al məni taleyimin əlindən
Yetməyəcək gücün buna
"Yetər!" deyirsən.

…

Getmək...

Getmək…

Arxanca baxacaq bir cüt

sevdiyin gözün olduğunu bilə-bilə

rəsmlərinlə,

sözlərinlə,

gözlərinlə,

xatırlanacağını bilə-bilə

getmək…

Ayrı-ayrı ürəklərdə eyni kədəri bölmək,

Ayrı- ayrı kəlmələrlə eyni sözu eşitmək

və getmək…

kəpənək ömrü ilə kifayətlənmək

yaşanacaq çox şeyin olduğunu bilə-bilə

tərk etmək

və getmək…

hələ  doğulmayanlarla,

hələ ölməyənlərin

heç birinin həyatda olmadıqlarını

dərk etmək

və getmək…

## Məni anlasa

Günəş əritdiyi gecədən üzr istəyib,
doğur hər gün üzümüzə.
Havada yenə günah qoxusu var
Məncə günahkarların əvəzinə
onların əməlləri cavabdeh olmadır.
Qürurunun kölgəsində daldalanan,
Xoşbəxtliyi duyub,yaşaya bilməyənlər
Susurlarsa,
bu fırtınaya işarədir.
Məni anlasa, yalnız bir şair anlaya bilər.

## Günahkar

Hər şeyimi sənsizliyimlə paylaşandan,
mənliyim sən doludur.
Sənsiz keçirdiyim hər an,
bir boşluq manifestidir,
oxumadığım kitablarda yazılan,
və bir geniş məzardı varlığıma qazılan.
Zamanla üz-göz ola-ola,
günlərimi saya-saya keçirdiyim ömürdə
könülsüz doğulan,
və bir dayaz qəmzədə boğulan təbəssümümdü.

Səninlə keçirdiyim sənsizliyin şərəfinə...
başıma çəkirəm göz yaşlarımı.
Sevməyi bacarana mükafat,
Günahlar günahsızına cəzadır bu.
Neyləyim,
Suyun axib öz çuxurunu tapdığı qədər günahkaram.

## Mənə tanışdı

Tanışdı mənə bu gedişin.
Fürsət bildiyin zamanları
boşuna keçirdiyinin fərqində olunca
vermişdin bu qərarını.
Ürək döyüntülərin heca-heca,
keşkələrə bölünüb vurunca
anlamışdın əslində getmək istəmədiyini.
Tanışdı mənə bu gedişin,
Aparacaqsan getdiyin yerlərə
geridə buraxdığını düşündüyün hər şeyi.
Xatirələrini belə,
Sevdiyin bir cüt gözə əmanət edə bilməyib,
götürəcəksən özünlə.
Həyatı yenidən öyrənməyə zamanın qalmamış

deyə düşünüb,

Həsrət -gözləməkdi , yoxsa darıxmaq

sualına daha cavab axtarmayacaqsan.

Tanışdı mənə bu gedişin

Olan, bitən hər şeyin,

Bu gedişin də sonuna

gözlə görünməyən nöqtə qoymusan əslində.

**Ağlama**

Hər cığırı sənə gedən yol,

Hər küçəsi sənə açılan şəhərəm

Yağış yüklü buludların əlindən almışam səni

Göz yaşların səkilərimi isladır,ağlama.

**Darıxmasın**

Bütün günün xoş xatirələrini

Ayı,ulduzu əsir götürürülmüş

Tənha gecəyə danışıram ki,

Darıxmasın.

**Həsrətə həsrət**

Ömür kitabımda qatladığım səhifə - sən,

Arasında qurutduğum çiçək - xatirələrin,

Vərəqlərin saralmağı - həsrətin,

Oxunmamağı isə ,

Həsrətin özünə həsrət qalmağımdır.

### Hələ

Yeni çəkilmiş foto kimiyik hələ

Baxılmaqdan doyulmayan

Xoşbəxt,qayğısız.

Zaman bizimlə yanaşı durub bu fotoda.

Saatın əqrəbləri isə hücum çəkir

dəqiqə-dəqiqə üstümüzə

sancmaq ,zəhərləmək təhlükəsi var hər an.

Özünü aldatmaq,ozunu anlatmaqdan asan imiş...

Hara baxsaq,

gözlərimiz biz doldura biləcəyimiz yerləri axtarır.

Sevə bilməyə daha çox səbəb var ikən

Ayrılıqlara səbəb axtarırıq,nədənsə.

Çox axtaran, çox da  itirər.

Birdəfəlik itirmək ,

itirəndən sonra axtarmaqdan yaxşıdır.

Yeni çəkilmiş foto kimiyik hələ.

## Gedənləri yox...

Bir boşluqdan içəri keçib,

Tanımadığım bir hissin içində azmışam.

Ya özümdən gedirəm,ya ozümə gəlirəm.

Daha qaranlıqdan qorxmuramsa,

demək pislikləri görə bilirəm.

Nəfəsini geri çəkib,

bütün fikirlərimi ayaqlayıb,

urəyimdə tutub saxlamağa çalışdığım dilək

addım-addım yoxa çıxır.

Mən gedənləri yox,

Gedişləri unuda bilmirəm.

## Quraqlıq

Hər xəzan olan yarpaq,

Payız  mövsümünə bir  əlvidadı.

Hər yağış damcısı,

Ürəyə ən azı bir dəfə daman eşqdir.

Ürəyimə damıb ki,

Bu il quraqlıq olacaq.

## Eyni

Eynisən sən də,eyni

əslində başqasan.

Bam başqa eynilik var səndə.
Görünmədiyin aynalarda,
Olmadığın yerlərdə,
Çəkdirmədiyin şəkillərdə
Bam başqasan.
Mənim səndə görmədiyim heç nə
sənə yaraşmır.
Səni görəndə hiss etdiyimin adı,
elə "sənsən".
Neçə eyni sən,
Bir başqa sən edirsən
Onu yalniz mən bilirəm.
Yoxluğun nə qədər çoxaldır səni...

## Yaraşmır

Bir bardaq susamaq,
Bir pay acmaq imiş sevmək.
Bir qucaq yalan imiş,demək
Sevgili bildiyimiz.
Adambaşına bir ömür,
adambaşına bir sevgi,
adambaşına bir həsrət...
Həsrətin mənə bir ömür borcu var.
Sevdiyimizə inanıb,

bosuna qorxmuşuq ayrılıqlardan.

Qorxmaga dəyməzmiş...

Yaşadıgımıza inanıb,

ölümdən qorxduğumuz kimi.

Bu sevgiyə heç əlvida da yaraşmır,

boş evlərə yaraşmadığı kimi...

**Yoxluğuna və sağlığına…**

Mənə ondan danışın dostlar

Deyin, dünən çay icirdik

Hamı danışıb gülürdü ,o,fikirli idi.

Deyəsən gülmək istəyirdi o da.

Saqqallı idi deyin,

O belə daha çox yadımdadı…

Dodağı çatlamışdı,

Gözləri parıldayırdı,

Səsi xırıldayırdı,

Onu heç belə görməmişdik deyin.

Mənə ondan danışın dostlar,

Özümü elə aparacam guya mənə maraqlı deyil

Mən onu sizdən az tanıyıram guya.

Şeir deyirdi deyin

Mən soruşum hansı şeiri?

Mənə yazdığı şeiri tanımadım guya…

Yaxşı şeirdi deyim, udqunum.

Mənə ondan danışın dostlar,

Urəyimə isgəncə bir soyuqluqla dinləyəcəm sizi.

Nə olar,mən  soruşa bilmirəm

Özünüz deyin ,

Ən son onu kiminlə, harda görmüsünüz?

Mənə ondan danışın dostlar…

## Unut

Əyri  tutmusan əllərində həyatı

Keçmişinlə  gələcəyin qarışıb bir-birinə.

Iç-içə keçirdiyin səbəblərdi bəlkə əlini əyən?

Hər səbəb, olacağa bir işarədir.

Heç bitməsin deyə başlamamaq isə,

Səbəb deyil,

bəlkə də çarədir.

Sən –öz içində,

bəzən yaralarının məlhəmi olan,

bəzən yarana duz basan

və bir nəfəsə söndürə bilmədiyin

eşqin  qədərsən.

Bəzən sənə elə gəlirmi,

içindəki  sadəcə qabığını dəyişən ilandır ?

Elədirsə,

o ,hiss sənin doğmandır,

o ,hiss sənin özündür.

Içində hava xoşdursa,

Unut  hansı mövsümdür.

## Səhər

Yenə gecə paltarını geyindi əyninə göy üzü,

Yenə pəncərəmə gəldi  ay  gecələməyə,

Yenə yar  bilib basdım  bağrıma gecəni.

Sükutun ahənginə uygun ,pıçıldadım qulağına:

“Yaman darıxmışam...”

Keçirib əllərini boğazıma bayaqdan qəhər

Ağlamasaydım,

boğulardım...

Göz yaşlarım yudu yenə

göy üzünün paltarını,

apardı rəngini,

açıldı səhər.

## Fon

Mənə toxunandan sonra,
ürəyimə yatan cümlələrə dönüşən
nəfəsin üçün darıxanda ,düşünürəm ki,
hər tapdığın şey səninidi - demək deyil.
Mən sənin həyatının arxa fonuyam,
həyatını daha gözəl göstərmək üçün.

**Məndən getdin**

Məndən getdin,
bu şəhərdən gedincə,
dəyişmədi ki,bu şəhər.
Təkcə mən bildim ,
Tək mən…
könülsüz   barışdım .
Ayrılığın  da dadı  yoxdu  artıq,
Alışqanlıqdı bu , alışdım…
Yalnız, bütün şifrələri sənin adınla açanda,
xatırladım səni.
Və gündə bir neçə tablet xatirə,
yatmazdan əvvəl,
içirdim qüruruma.
Səndən oyanmaq istəyirəm,
yuxuma da gəlmə daha.

Indi bildim,

Baş alıb gedənlərin,

vidası belə olurmuş ...

Heyifff…

Sənə bir xəbərim var idi…

**Şübhə.**

Hərdən şübhə edirəm yaşadığıma

Çoxdandır  ağlamıram,

Özümlə danışmıram,

Taleyimlə küsüb, barışmıram

Nə də unutmağa çalışmıram

olanları.

Yaşadığıma şübhə edirəm,bir sözlə.

Mənə tərəf gəlmək istəməyən ümüdlər,

Çağırmasın indi məni !

Günəşə sərəcəm bundan sonra günlərimi,

günəşlənsinlər !

Yıgmayacam artıq

üzümə ağ olan qara tellərimi,

küləklənsinlər !

Bir parça həyatam bundan sonra,

ömürdən qopan.

## Alatoran

Həqiqətlər tük ürpədir,

Yalanlar könül açıb,

ümüd bağlayırlar heçə.

İndiki zamanın tərs üzünə çevrilmiş ,

rəngsiz yuxularım dindirir məni hər gecə.

Uşaqlıq xatirələrimdi,

qorxa-qorxa o qaranlıq otağın küncünə

qısılıb ağlayan.

Uşaqlıqda qorxardım qaranlıqlardan,

İndi qaranlıqda

qaranlığı görə bilmədiyim üçün qorxuram.

Hər gözlərimi yumanda

nəfsimin çəkdiyi o rəsmlə qarşılaşıram.

Nə qədər istəsəm belə o an,

Səssizliyimin səsinə toxuna bilmirəm.

Bacarmıram,

Yaza da bilmirəm artıq.

Tir-tir titrəyən qələmin canı əlimdən qurtulub,

Onsuz da pəltək şeirimin

Qorxudan dili tutulub.

## Yamaq

Bir bağlı qapı arxasına söykənib,

Yamağı sökülmüş həyatıma

yeni yamaq vururam.

Tikişlərin gözəlliyinə-

yəni uydurduğum yalanların saflığına,

ən çox özüm inanıram.

Mənə ümüd olanlar ,

hər gün ümüdlərinin yerini dəyişirlər,

axşamdan-sabaha,

sabahdan-axşama.

Öz eybinə kor olan hamı kimi,

baxıram mən də olanlara.

Dualarıma güvənib,

Sığınıram günahlarıma.

Xəyallarım yenə dost,

Düşüncələrim düşmən olub,

savaşmaqdan yorulmayan.

Bütün bağlı qapılardan keçə bilən

bir zaman var,

hərəkəti duyulmayan.

Özüylə çox şey daşıyır ,

Kim bilir nələr çəkir,

necə yaşıyır?

Bəlkə, ölüm də, özünə ölüm istəyir...

Bağlı qapı arxasına söykənib,

yamağı sökülmüş həyatıma

yeni yamaq vururam.

Yaşamadığım hisslərim bağışlasın məni.

## Onsuz da...

Gəl, dəyişək savablarımızla günahlarımızı

Onsuz da,

Bir zamanlar yaşamışıq - deyə

həyata vurduğumuz damğalardan başqa

bir şey deyil onlar.

Seçə bilmədiyimiz adımız kimidir,

həyatımız da.

## Xatirlamaq qalacaq

Baxışlarını gözlərimə buraxdığım gündən bəri,

Eyni yuxuları görürük səninlə hər gecə

Və hər sabah,

çat vermiş xəyalların arasından

baxaraq oyanırıq

içini çəkən ümüdlərimizə.

Kimi yaşayar,

Kimi xatırlayar,

Kimi də yazar mənim kimi.

Yaşanmayan xatirələri

xatırlamaq qalacaq bizə.

## Bu gün.

Bu gün küçədə bir yiyəsiz pişiyə sığal çəkdim,

Yoldan ötən tanımadıqlarıma salam verdim.

Çoxunu peşman etdim

Başlamamış bitdim bu gün.

Qocalığımı xəyal etdim,cavan öləcəm deyə.

Getməmiş qayıtdım yolumu,

Yatmamış gördüm bu yuxunu

Ayıq-ayıq sayıqladım bu gün.

Atdim gözlərimdən yollara məndə qalan xəyallarını

və qaçdım,

qaça bilməyəcəyim yerlərə.

Bütün bunlar

Ölən hisslərimin vəsiyyəti idi mənə.

## Günəşdən öncə

Kiçik həyəcanlarla başlayır,
bütün böyük eşqlər.
İlk baxışın alovu  yandırarkən qəlbini
Ovuclarına  doldurub içdiyin su kimi
dadlıdır həyat.
Xəyalların boya-başa çatıb,
Xatirələrə çevriləndə başlayır  bütün acıların.
Hər nəfəsinin axırına gedib qayıtmaq,
Uzaq bir səfərə çıxmaqdı.
Onunla keçirdiyin ömrü
bütün tanıdığın həzzlərdən çələng düzəldib
qoymaq istəyirsən başına tac əvəzi.
Bəzən üsyan etsən də yalqızlığına
Onu da sevirsən,
məhs o tərk etdi deyə,
ona aid olduğu üçün təkcə.
Hər səhər gözünü açanda yenə
Onu görürsənmi, Günəşdən öncə?...

## Əlimi tutduğun gündən...

Əlimi  tutduğun gündən tez-tez yıxılıram.
Kirpiklərimlə gülürəm həyata.

Daha baharı gözləmirəm  əvvəlki  kimi,
Bütün mövsümlərdə yaşamağı bacarıram.
Yaxınlaşmaq,
ən  uzaq yolların  sonudur  bəzən.
İndi səni sevmək -
öz kölgəsini tutmağa çalışan körpələr kimi
gerçək bildiyim şeylərə toxuna bilməmək...
Qəlbin atəşində peşmanlıqlar bişirmək...
“Gedirəm,
bu dəfə səni özümlə götürməyəcəyəm,
yanına qayıdım,deyə”
düşünmək...

**Yaralıyam**

Yaralıyam,
Xəyalından yıxılmışam.
Yanina gələ bilmərəm daha
qırılıbdı dizlərim.
Aydınlıqdan küsüb daha,
Sən baxışlı gözlərim.
Uzatma əllərini tuta bilmərəm,
əllərim də yaralı.
Sən ilk tibbi yardımı da,
bacarmırsan deyəsən.
Yaralarım sağalan kimi,

həyatıma rəng qatacam
hansı rəngdən başlayım,
görəsən?

**Nəsə damır içimə**

Nəsə damır içimə
Dama-dama çoxalır,
Sən olursan.
Amma dolmursan.
Bəlkə içimdəki atəşdi, buxarlandırır səni...
Bəlkə içimdəki bir şübhədən damırsan,
Dolmursan...
Bəzən çarəsizliyimi boynuma alıb,
Haqqa göndərirəm
Özümü sənin əllərində,
Sözümü, sənin səsində...
Azadlıq istəməyən kölə kimi yaşamaq,
gözəldi əslində...
Həsrətini yuyub, yuyub
qurudub, göz yaşlarım,
Həsrətin tər təmizdi.
Yanında olmaqdan gözəldi bəlkə,
Eyni xəyallar qurmaq ,
eyni yuxular görmək ,

bu da təsəllimizdi...

Öyrənməklə deyil sevdiyim,

Yaşamaqla öyrənilir həyat.

Və sevdiyin qədərdi ömrün .

Nəsə damır içimə,

Dama-dama sən olursan

Dolmursan...

Indi bildim ki, içimdə

dola bilmədiyin qədər ,dolusan.

**Günəşin batışı**

Üzünə baxıram gözlərin hanı ?

Dönüşün gedişinə xəyanətindi.

Bir gün  xəyalında xəyalın idim,

mənə Günəşim deyirdin...

Indi hətta,

bir quşun qanadı altında da gizlənə bilərsən.

Gedirəm,

Üzümə baxa bilməyən  gözlərini aç,

arxamca diqqətlə bax!

Görəcəksən ki,

Günəşin batışı  doğuşundan da  gözəl olur…

**Heç kimin**

Sonraları xatırladıısan mənə

Adın su olsun ,

susayanda içə bilim.

Heç kim sən deyilsən sevgilim

Mən də sənin “heç kim” in olmaq istəyirəm.

**Yadımdasan**

Uzaqdan eşidilməyə çalışan musiqi səsi kimi,

ətə qana dönə bilməyən xəyal kimi,

buxarlanmış şüşə üzərinə yazdığım adlar kimi,

Yadımdasan.

Bir könül məsafə var aramızda.

Hər gün bir qurtum əlvida içirəm şərəfinə.

Gəl, sənə məni unutmağı öyrədim

Öyrənmək heç vaxt gec deyil.

Bu imtahanda düzləri qaralayanda
səhvlərimin üzü ağ olur axı…
Eşqin harasından dönsən xeyirdi.
Bilirəm indi sən fikirləşirsən
“Sevməyi bacarmır,yenə deyindi .”

## Saat

Can borcluyam ruhuma,
hər gün gecəyə bulaşanda ikiyə bölünürəm,
itirirəm ruhuma forma verən canımı.
Hər sabah  gözümün ucuyla toxunub aynaya,
yenidən vururam özümə.
Dünya yuvarlaqmı,düzmü vecimə deyil.
Saatın əqrəbləri arasındakı mənasız qaça-qaça baxıb,
gülümsəyirəm.
Həyatın tamamına ölüm qalır.

## Uça bilmirəm

Ən gözəl göründüyüm ayna idi gözlərin
Indi onlara baxa bilməmək təsəllisini
Baxdığın yerlərdən alıram.
Ən sevdiyim ətir idi nəfəsin
qoxun da qoxuma cox yaraşırdı

daha ciyərlərim  dolmur.
Ən sevdiyim azadlığım idi qısqanclığın
Indi qəfəsindən buraxılan quş kimiyəm
Uça bilmirəm.

## Ehtimal

Yavaş-yavaş cümlələrimi tərk edir adın
Hər dəfəsində bir misra qanadan,
Yazıldığı kimi oxunmayan adın.
Gecikdirilən hər an yaşanmağa məhkumdur
bunu bilirdik.
Məğrur-məğrur yenildik
iki qəlb qədər şöhrəti olan sevgiyə.
Yalnız öz arxasını saxlayar,
gözdən asılan pərdə.
Axı,böyüyə bilməmək,
yaşlanmaqdan qurtulmaq deyil.
Üzündə ayrılıq izləri,
Həsrət qırışları yaşa dolur sevgimiz.
Alnında tumurcuqlanan tərdi xatirələr
Və biz...
çöküntüsüyük o xatirələrin.
Hər şeyin sonunun  səsidir səssizlik...
Və , ...bir ömrü çərçivələyən bu səssizlik,

Varlığınla, yoxluğun arasında qalmaq ehtimalımdı.

## Ağlamaq

Tayı itmiş ayaqqabı kimi,
qarşı-qarşıya durmuşam yalqızlığımla
o, da bir gün itsə...
Diz çökəcəm dili olmayan sirrimin qarşısında
Yalvaracam, ruhumu əldən salan xatirələrə
Içimdə hıçqıran göz yaşlarım ovuclarıma doğacaq.
Ovuclarıma hönkürəcəm doyunca.
Ilk dəfə ağlayacam utanmadan,
doğulduğumda ağladığım kimi...
Ağlayacam...
Sirrim lal olduğuna sevinəcək,
ruhum dincələcək,
ovuclarım doyacaq.
Ağlamaq...
Insan belə doğulursa,nəyi pisdir?
Ağlamaq...
Insana insan olduğunu xatırladan
ən gözəl hissdir.

**Çərpələng**

Gözlərim hələ də,

uşaqkən uçurtduğum çərpələngi axtarır göylərdə.

Bəlkə də hardasa,

hansısa buludun üstündə yaşayır hələ də...

Bəlkə, bulud da o vaxtdan ağlamır onun xətrinə.

Günlərdən bu gün deyildi onda,

tumurcuq hisslərim  hələ açılmamışdı.

Bilmirdim,

hər mələyin qorumağa bəndəsi olduğunu.

Əllərimi də uçurmuşdum göylərə,

körpə əllərimi...

O gündən hər üfüqə dalanda

əllərim əl yelləyir mənə.

Siz heç,

birini vuraraq ona vuruldunuzmu?

Yoxsa, siz də mənim kimi...

Ehh...

Vurmaq üçün mənə əllərim gərək olmadı.

**Yoxluğunun sonrası**

Salam,
sənə məktub yazacaqdım əzizim,
yazmıram cavabsiz qalar.
Və yazdığıma pis olma nə olar…
Bax, ağlamıram daha
Gözlərim yumağa qıymır özü yazdığı yazını
nə gözəl xətti varmış,
nə gözəl izləri var imiş göz yaşlarımın.
Kiritdi daha səndən gələn
və gəlməyən səbəblər məni.
ən çox hıçqırmaq  yaraşır mənə indi
yoxluğunun sonrası öyrəndim bunu,
öyrənmək üçün yanılmalıydım.
Nə desəm inanma,
Mən çoxdan öyrənmişəm yalanı,
yalandan ağlamağı
Alt-üst etməyi bir baxışla.
Hesablamadığın təsadüfün oldum sənin
Özümə həsr edə bilmədim səni
Bağışla…

**Yuxu**

Tez-tez görürəm bu yuxunu;
ağ geyinib günəşli gündüzə bənzəyirəm
qara geyinəndə ulduzlu gecəyə .
Bulud  pak qüsulumdu bədənimdə
Külək ən gözəl sığalımdı saçlarımda
Təbiət ən gözəl rəssamım.
Amma narahatam…
Səsimi içimdən alan gülüşlərimlə
yaşmaqlanmışam,
Zamandan gizlənirəm…

**O, belə deyir…**

Könlümə uzaqlara getmək düşür hərdən
Tuta bilməyəcəyimi bildiyim üçün,
söz vermirəm nə vaxt , hara...
Çıxıb getmək bu şəhərdən,
Sakitcə, üzr istəyib bir nəfərdən,
getməliyəm.
Belə inanmalıyam həyatın
su kimi bir qabda dura bilməyəcəyinə,
getməyimlə bunu sübut etməliyəm.
Bir gün getməliyəm deyə,

dırnağından yaxaladığım ümüdlərim də
sürüşür əlimdən.
Bir gün getməliyəm,
uzaqlaşmalıyam ondan.
Və hər dəfə onu xatırlayanda,
kiməsə baxıb “yox! bu o deyil!”deyib
unutmağa çalışmalıyam.
Və yurdunu tərk edib gedən köçəri quşlar kimi
mütləq geri dönməliyəm.
O,belə deyir…

**Çətindi**

Gün kölgəsin toplayanda,
üzünü çevir sabaha.
Gələn hər sabaha gözlərin aydın !
Körpü ol ,“keçər” dediyin hər şeyə...
Özünü zamana təslim eləmə.
Tut tutmaq istədiyin əli,
Boğ boğmaq istədiyin kini.
Xoşbəxtliyə söz verdiyin andları,

çək başına.

Günahların həddini aşırsa,

özünü qınama.

Demək tövbələrini pozduran var.

Boyunda bir ucalıq hiss elə,

xəyalında Günəşi qucaqla.

Çətindi ,belə yola salmaq gedişlərini...

Səp elə bu küçəyə,

bir ucu əlində qalan xatirələrini.

Salacaq o,bura nə vaxtsa yolun,

toplayacaq ,

burda ağladığın gülüşlərini.

**Bu bahar**

Yaraşmadı duyğularıma bu bahar,

günlər uzanır,

bir- birinə bənzəyən hekayələr kimi...

Maşına minən kimi,

keçib pəncərə tərəfdə otururam ,

baharı daha yaxşı görüm deyə…

Hər şeyin içindən çıxan,

heç neyə görə,

içimə atdığım yumruqların ağrısı

bir qədər azalsın deyə...

Aman ürək,

bu nə həzin layladı?

üşüdüyüm gecələrdə üstümə örtdüyüm

səssizliyin dibindən gəlir.

Bəlkə də, sonunu bildiyim üçün

dinləyə bilməyəcəm sonuna qədər.

Amma həmişə biləcəm ,

yarım qaldığınını…

**Bu saatlarda…**

Baxışların  əl -ələ verib, keçir xatirimdən

özün  harda olsan da qoxun gəlir mənə.

Bilirəm, necəsən bu saatlarda,

Bizə qaçırsan hamıdan…

Bilirəm, cox uzaqlara baxırsan

Məndən, sənə uzanan yol qədər uzağa…

Gəmisini xilas edən kapitan kimi qururlanırsan,

Qavraya bildiyin qədər xoşbəxt olursan,

Xatirələrin yeni xəyallar doğur,

bu saatlarda…

Küləklər ağacları razi salır

Yarpaqlarını  sən tərəfə üfürsün deyə.

Bir bulud tələsir sənə sarı

Iki kəlmə söz gətirir üstünə yağmağa

və Günəş kölgəni aparmağa

bu saatlarda…

Yaşadığın hər şey üzünə yazılır

Sonra məni gətirir bir xəyal

Silirəm üzünü …

təmizlənmir.

sabah yenə gələrəm

bu saatlarda…

## Sevə bilmədik

Dünənki sabahı da yaşadım,

elə dünən kimi.

Hər günümün əlindən aldığım dəqiqələrdəsən.

Qaşı çatılmış xəyallarım

çəkdi yenə rəsmini baxışlarıma.

Bir təbəssüm sevindim.

Biz sevə bilmədik,

baxışlarımız kimi.

## Oyandım

Neçə illərdi yatırdım,

Saatım sənə qurulmuşdu,

oyandım...

və bu sabah gözlərin doğdu ömrümə

Günəş əvəzi.

**Ağlıma gəlməzdin**

Heç ağlıma gəlməzdin

Indi ağlıma gələn hər şey sənsən.

Bilmirəm neçə ürəkdən keçib,

Unutduğum yolla dönmüşəm yanına.

**Qısqanmadım**

Gülüşünə nə oldu?

Məndən oğurlayan kimi,

Harda itirdin?

Nəyə satdın?

O qiymət qoya bilmədiyim təbəssümünü.

Bulud-bulud keçdi üzündən

Duman baxışların.

Düşdü gözlərindən

Günəş bildiyim ulduzlar.

Tutdu demək,

hələ bosalmamış yerimi,

səni heç qısqanmadığım tələbə qızlar.

**Qarğış**

Bir gün duracağını bildiyim ürəyə necə güvənim ki,
İçindəki sevgisi bitməyəcək?
Bu gün sevən adama necə güvənim ki,
Sabah başqasını sevməyəcək?
Boz qafiyəli şeirləri necə oxuyum ki,
Dilimə yatır,ürəyimə yox…
Belə cümlələrə necə şeir deyim ki,
Sanki oxuyanın qəlbinə qara ox !
Hələ agzi açılmamış qarğış kimidi bu…

**Heç kəs**

Heç kəs sahili dəniz qədər sevə bilməz,
Gündə milyon dəfə yorulmadan,
gedib, gəlib üz-gözünə sığal çəkməz.
Heç kəs ağacları quşlar qədər sevə bilməz,

Gündə min dəfə o budaqdan,

bu budağına qonub,başına dolanmaz.

Heç kəs yolları addım qədər sevə bilməz,

gündə bilmirəm neçə dəfə

üzünü üzünə qoyub götürməz.

Heç kəs işığı qaranlıq qədər sevə bilməz,

Gözlərim qaralanda bildim.

Heç kəs adamı anası qədər sevə bilməz

Ana olanda anladım.

Heç bir canlı həyatı insan qədər sevə bilməz,

Ölümü düşünəndə xatırladım.

**Məktub kimi...**

Ömür boyu yaşanmamış olmalı,
Ömür boyu anlatılan nə varsa
Öz canına alışa bilmir adam,
Adamlar içində tənha qalarsa.

Yolunu bilməyən qayığın külək
Yelkəninə yön verirsə, nə yazım
Yanımdakı uzaqlaqlığım kimisən
Könlüm əl vermir ki, bu yolda azım.

Dalğa-dalğa uzaqlaşıb özümdən
Belə vidalaşdım, getməyə dəyər.
Sevdim,həm sevildim bu mənə bəsdi
Kölgəm boydayamsa, bu mənə yetər.

Indidən sonranı necə yaşayım,
Getməsin ömrümdən bir an da hədər.
Səni  məktub kimi yazıb bitirdim
Suallar,vergüllər…nöqtəyə qədər.

**Gözlərim yol çəkir**

Gözlərim yol çəkir,
Uzun, uzaq sonsuz...
Gözlərim yol çəkir,
Hamar, izsiz, tozsuz...
Bu yol gözümdən başlayır,
Bu yol gözümdə bitəcək
Kimsə bu yolu daşlayır,
Kimsə gözümdə itəcək.
Yavaş-yavaş yola çıxdım gözlərimdən
Gedərəm uzağı,
gözlərimin nuru qədər...
Yaxını,
göz qapaqlarım yorulanadək...

Bəbəklərim yorğun bələdçilər,

Mən əldən düşmüş səyyah.

Bir daha bu yola çıxmaq,

Özündən getməkdi, vallah

Gözlərimdə yorulmuşam, tükənmişəm

Bəlkə gözümdən düşmüşəm.

Dünya yaranandan bəri

«İnsan» adlanan dözüməm

Qayıdıram gözlərimdən,

Bu yolun sonu özüməm.

**Yoltanımaz**

Hər gün ürəyimdən keçən,

bircə dəfə bilmədi ki,

hardan keçir.

Yeyib, bitirib içimi

susayıb o,

gözlərimin nurunu içir.

Addım səsləridir bu döyüntülər,

Bir yoldu, bir yolçu

yola nabələd.

Yəqin ki, yolunu azacaq əlbət,

Ürəyim onunçün geniş bir ölkə,

bəs niyə qərarı tutmur bu yerdə,

başqa ürəklərə tələsir bəlkə?
Yaman nigaranam, bilmirəm nədən
Keçirik yenə də, səndən xəbərsiz
Mən sizin küçədən,
sən ürəyimdən.

**Yaşamaq budur**

Arxana baxmadan
getdiyin gün
Ölmədim,
olmadan yaşadım.
Elə bildim yaşamaq budur,
yoxsa ölərdim.
Özümi salıb itirdim,
o an ömrümü bitirdim,
amma ölmədim.
Səndən çox şey öyrəndim həmin gün
daş olmağı,
qəlbsizliyi,
biganəliyi,
daha nələri...,
daha nəyi.
O gündən öyrətdiklərinlə
həyata imtahan verirəm.

Sən yaxşı müəllim idin,

amma həyat səndən güclüdür.

**Hədəfə doğru**

(30 yaşıma...)

Ox cıxıbsa yaydan,

hədəfə doğru yoldadı.

Zamanın sayğacı - 30  göstərir.

Ömrə görə yarı yol hesab edilə bilər,

taleyə görə sirdir...

gəncliyə isə ağır dərddir.

Hesablaşmıram heç biri ilə,

Allah bilən məsləhətdir.

**Xətrinə**

Tale verdiyi yükü,

Birtəhər daşıyaram.

Bu ömrü yaşayıram,

Yaradanın xətrinə.

Öz başımı qatıram,

Günü günə satıram.

Gecələri yatıram,

Röyaların xətrinə.

Heç nə ummuram səndən

Özümü qınayıram.

Səni qucaqlayıram,

Qollarımın xətrinə.

Elə olur ki, bəzən

Öz quyumu qazıram.

Nəsə,

Bu şeiri də yazıram

Oxuyanın xətrinə.

**Heç böyüməmisən**

Görüşə gəlmisən keçmisinlə

əllərində bir qucaq süni umid çələngi,

gözlərində cavabını

tək özün bildiyin suallar,

dilində,

yalanlarını isbat edən andlar.

daha nə deyim, gəlmisən

yenə həmən o sənsən.

Hisslərin kirayə paltar kimi

Hələ də ruhuna böyük gəlir.

Heç böyüməmisən.

**Yol gedirik həqiqətə**

Dünən ölən günün yası bitər-bitməz ,

Bir yeni gün də doğuldu.

Yaxşı ki, həyatın bu qanunu var,

ölənin yerinə biri doğulur.

Yenicə doğulmuş günün əlində

qaranlıq əriyir,

zülmət boğulur.

Bu günün də öz hökmü,

öz yazısı var.

Dünən də başqadır,

bu gün də başqa.

Hər gün ürəyimcə olaydı keşkə.

Bu gün doğulandan ölənə qədər...

Nələr olur, nələr bitir

Günün bitməsini istəməsək də,

Zaman bizi itələyir,

Zaman keçmir üstümüzdən

Vaxt öldürə-öldürə

Gün öldürə-öldürə

Yol gedirik həqiqətə.

**Ürəyim səni elə istədi ki...**

Ürəyim səni elə istədi ki,
Bir stəkan su içdim,

heç susamamışdım.

Pəhrizimi pozdum,

heç acmamışdım.

Ürəyim səni elə istədi ki,

gülə-gülə ağladım.

Heç gözümdən yaş çıxmadı

Yenə içimdən axırdı.

Ürəyim səni elə istədi ki,
çağırdım adını pıçıltılarla.

Zəng eləmək istədim,

Görmək istədim bir anlıq.

Yox, özümü yaxşı tanıyıram,

Sonra peşman olacağam.

Bir az musiqi dinlədim-

Sənin sevdiyin müğənni,

əvvəl heç sevməzdim onu.

Xoşladığım hər şey indi,

Sənin zövqündədi yəni.

Yaşadığım hər şey sənli.

Yoxsa sevgi nəyə lazım?

Hərdən ürəyim istəyir səni belə,

Bir də istədiyim kimi

Nəsə yazım elə-belə.

**Öpmə gözlərimdən**

Gözlərindən öpəndə

Razı olmaz,

Deyərdin:

“Gözdən öpmək yaxşı deyil,

ayrılıq gətirər,gülüm”

İnanmırdın sözlərinə,

Vurulmuşdum gözlərinə.

Alırdı gözlərin ağlımı başdan

Xoşum da gəlirdi,

Öpəndə gözündən süzülən yaşdan.

Sevincdən axdığın güman edirdim,

Sən demə ayrılıq qorxusu imiş.

Nə yaman qorxurdun,ayrılıqdan sən?

Qorxma,deyirdim sənə!

“Qorxan gözə ayrılıq yox, çop düşər”

Ayrılıq nədir ki,istəməsək biz

gələ ömrümüzə bizdən xəbərsiz.

Bilmirdim seçimi ayrılıq edir,

Seçdi bizi,niyə bilməm?

Niyə məhz sən ,niyə məhz mən?

Hər şeyə çarə var ölümdən başqa.

Sevgimiz ölümsüz,amma çarəsiz.

Gözdən öpmək imiş,səbəbi demək.

Sən deyəndə inanmırdım

“Gözlərimdən öpmə,ayrılıq gətirər”

Hanı o ayrılıq,öpüm onun gözlərindən.

Bəlkə səni gətirə.

**Dərd ,yoxsa sigaret?**

Sən dərd çəkmə,

çəkə-çəkə mənə gətir.

Mən bilirəm dərdin dilini.

Çəkməyi də bilirəm,

çəkib uzatmağı da...

Gizlətməyi də bilirəm,

Özümü ovutmağı da...

Yeni öyrənmişəm arabir unutmağı,

lap yeni...

Sən çəkə bilməzsən,

heyif edərsən.

O dərd, dərd olmaz ki,

hey gileylənsən.

Siqaret deyil, dərd çəkib dumanın

havaya üfürüb rahatlayasan.

Dərd çəkməyin də öz qaydası var,

Məsələn: həyat səni danmalıdır,

sevincin kədərə ilişib qalmalıdır.

Dərdi bəhanə edib siqaret çəkənlərə,

Siqaret qutularının üzərində xəbərdarlıq var:

"Siqaret çəkmək sizin sağlamlığınıza zərərlidir"

Bəs dərd qutusu olan,

ürəyin üstündəki yazı

hansı dildədir görəsən?

**Sənə gəlmişəm dəniz**

Sənə gəlmişəm.dəniz!

Səninlə dərdləşməyə.

Dinlə məni.

Sən dərd dinləyən,

dərd anlayansan.

Ovut məni dalğalarınla.

təsəlli göndər ləpələrinlə.

Danış dəniz,danış mənimlə.

Sakit  danış,mən dinləyim.

Danış gələnindən,

gedənindən danış,

Danış ölənindən

itənindən danış.

Dinləyim,ağlayım

boşalsın içim.

Mən sakit olanda dərin bir gölə,

ağlayanda sənə oxşayıram.

Sən də ağlayırsan,

suyunun dadından bilirəm,

hıçqırığını da eşidirəm.

Ağlama dəniz,

ağlama!

Gəlmişəm ki,

qoynuna al,qucaqla məni.

## And

Alıb adını dilimə,

çəkib yoxluğunu ciyərlərimə,

bağıracam göylərə,

Buludlar təlaşla dəyəcəklər

bir-birlərinə.

Əvvəl səsimi əks etdirib aləmə,

sonra şəklimi çəkib,

göndərəcəklər yuxularına.

Qorxub «fırtınalı mən»dən

Yalvaracaqsan yuxuna

Etirafın dağ vuracaq dilinə

mən adda.

And içmişəm bu eşqə ki,

Daha əvvəlki olmaram

nə yuxuda, nə həyatda.

**Ay adamlar**

Sözüm çoxdu ürəyimdə

Hər ötənə necə deyim?

Gündüzlər sirr saxlamaz ki,

Gəlsin, yenə gecə deyim.

Ulduzlarla danışıram,

Ayla dərdimi bölürəm.

Ay da mənə sirin verir
Bölüb, yarısın görürəm.

İstəmirəm duysun məni,
Hər ağzı göyçə binəva.
Ondan yaxşı qiymət verər
Sözümə torpaq, su, hava.

İnciməyin, ay adamlar
Mən sizdən bir az uzağam.
Allah toxum səpir mənə
Misra-misra cücərirəm
Sözü bitirən torpağam.